**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**039/359

**Bakı şəhəri** **"**25**"** iyun **2024-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2022-2024-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Yaponiyanın Şikoku (Shikoku), Kyuşu (Kyushu) bölgələrində, Türkiyə Respublikasının Afyonqarahisar (Afyonkarahisar) vilayətində, Estoniya Respublikasının Rapla (Rapla) inzibati ərazi vahidində, Amerika Birləşmiş Ştatlarının (ABŞ) Cənubi Dakota (South Dakota), Missuri (Missouri) ştatlarında yüksək patogen quş qripi, İsrail Dövlətinin Mərkəz (HaMerkaz) dairəsində xırdabuynuzlu heyvanların taun, Fransa Respublikasının Yeni Akvitanya (Nouvelle-Aquitaine) regionunda və Moldova Respublikasının Kişinyov (Chişinău) şəhərində isə qeydə alınmış Nyukasl xəstəliyi aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.1.1.** 2020-ci il 13 noyabr tarixli 75 nömrəli qərarla Yaponiyanın Şikoku bölgəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.2.** 2020-ci il 25 dekabr tarixli 93 nömrəli qərarla Yaponiyanın Kyuşu bölgəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.3.** 2023-cü il 6 fevral tarixli 005/256 nömrəli qərarla Türkiyə Respublikasının Afyonqarahisar vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.4.** 2023-cü il 13 mart tarixli 011/262 nömrəli qərarla Estoniya Respublikasının Rapla inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.5.** 2023-cü il 17 oktyabr tarixli 045/296 nömrəli qərarla ABŞ-ın Cənubi Dakota ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.1.6.** 2023-cü il 13 noyabr tarixli 052/303 nömrəli qərarla ABŞ-ın Missuri ştatına tətbiq edilmiş məhdudiyyət.

**1.2. Xırdabuynuzlu heyvanların taun xəstəliyi üzrə:**

**1.2.1.** 2021-ci il 31 avqust tarixli 048/143 nömrəli qərarla İsrail Dövlətinin Mərkəz dairəsinə tətbiq edilmiş məhdudiyyət.

**1.3. Nyukasl xəstəliyi üzrə:**

**1.3.1.** 2023-cü il 23 yanvar tarixli 002/253 nömrəli qərarla Fransa Respublikasının Yeni Akvitanya regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.3.2.** 2023-cü il 27 mart tarixli 014/265 nömrəli qərarla Moldova Respublikasının Kişinyov şəhərinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** — **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer